6 noyabr Teleradio işçilərinin peşə bayramı günüdür

# AzTV-də bir gün...

**...Teleradio işçilərinin peşə bayramı ilə əlaqədar fotomüxbirimiz Elşən Ağalarla reportaj hazırlamaq üçün elə yenicə AzTV ərazisinə daxil olmuşduq ki, ustad jurnalist, tanınmış idman şərhçisi Aydın Əliyevlə qarşılaşdım. 1989-1992-ci illərdə burada baş redaktorum olub. Səmimi görüşüb söhbət elədik, xatirə cığırı ilə asta-asta irəlilədik. Aydın müəllim fəxrlə bildirdi:**







- İllərlə rəhbərlik etdiyim idman proqramları baş redaksiyası yeganə yerdir ki, əməkdaşlarından 6 nəfəri müxtəlif vaxtlarda Əməkdar jurnalist fəxri adına layiq görülüb. Biri də elə sənsən. Hamınızla qürur duyuram.

- Uğurlarımızda sizin zəhmətiniz danılmazdır, ustad, - dedim. - Peşəkar telejurnalistikanın mogikanlarından birisiniz. Bu gün də burada çalışır, təcrübənizi gənc şərhçilərdən əsirgəmirsiniz. Bayramınız mübarək!

Gülümsəyərək: -Sizinlə birlikdə! – dedi və əlavə elədi ki, bu bayram sənə də aiddir.

Aydın müəllimdən ayrılıb səliqə-sahmanlı, qıraqları gül-çiçəkli səkilərlə əsas binaya doğru yön aldıq. Üç ildən bəri AzTV-yə sədrlik edən peşəkar jurnalist, filologiya elmləri doktoru Rövşən Məmmədov burada əsl yaradıcı mühit bərqərar edə bilib. Hamı əl-ələ verərək gözəl verilişlər hazırlayır, xalqa, dövlətə diqqətəlayiq xidmət edir.

Sədrin müavini, Əməkdar artist Rafiq Həşimovla görüşdük. Bizim vaxtımızda diktorlar qrupunda işləyirdi, həm də müəllif verilişləri ilə populyarlıq qazanmışdı. Elə ki "Xəbərlər" proqramı onun növbəsinə düşürdü, arxayın olurduq ki, məlumatları tamaşaçıya yapışıqlı səsi, səlis nitqi ilə lazımınca çatdıracaq, ən gözlənilməz məqamlarda özünü itirməyəcək. İndi də hazırkı vəzifəsində layiqincə çalışır. Eyni zamanda, istedadlı yazıçı, ssenarist, rejissor və tərcüməçi kimi tanınır.

- Çox sağ olun ki, bayramımızı təbrikə gəlmisiniz, - dedi. - Bu, hamının televiziyasıdır, evlərə, necə deyərlər, ərklə girir, hər kəslə birbaşa həmsöhbət olur. Fərəhli haldır ki, son illərdə Azərbaycan radiosu və televiziyasında ciddi keyfiyyət dəyişiklikləri özünü büruzə verir. Bunu ictimai rəy sorğuları da göstərir və məmnunluq yaradır. Biz dinləyici və tamaşaçı auditoriyası üçün işləyirik, o isə bütövlükdə bizim xalqımızdır. Vaxtilə ulu öndər Heydər Əliyev demişdi ki, Azərbaycan televiziyası xalqımızın milli sərvətidir. Əlamətdar faktlardan biri də budur ki, Azərbaycan teleradiosunun bəxtinə 30 ildən sonra torpaqlarımızın düşmən işğalından azad olması tarixi düşdü. Hamımız xatırlayırıq ki, 2020-ci ildə bütün cəmiyyətin gözü və qulağı Azərbaycan teleradiosuna dikilmişdi. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev qələbə müjdələrini, xəbərlərini bizim televiziya vasitəsilə şəxsən özü çatdırırdı. Bu da, əlbəttə, ana teleradioya verilən qiymət idi. Bu gün də həmin dəyərdən qürur duyur, daha yaxşı verilişlər hazırlamağa çalışırıq.

Teleradiomuz həm də Azərbaycan dilinin saflığının qorunduğu məkandır. Yaradıcı kollektiv ənənələri qorumaq, ruhi, mənəvi təkamülü davam etdirmək, cəmiyyətin intellektual səviyyəsini artırmaq üçün səylər göstərir.

Ana televiziyanın hər gün 10 dəfə efirə çıxan "Xəbərlər" proqramının saat 16:00 buraxılışını canlı izlədik. Yeri gəlmişkən, möhtərəm Prezidentimizin fəaliyyət gündəliyini, səfərlərini, dövlət və hökumət tədbirlərini operativ və səviyyəli şəkildə işıqlandıran TV xəbərçilərini əsl fədakarlar saymaq olar. Onların efirə hazırladığı rəsmi məlumatlar ilkin və mötəbər audiovizual mənbədir. Öz təcrübəmdən bilirəm, bura elə bir yerdir ki, bir əlin elə hey olayların nəbzi üzərində olmalıdır, yağış, qar, isti, tıxac və sair bəhanələr olmadan özünü obyektə, hadisə yerinə çatdırmalısan, vaxt darlığı olanda yolda belə dizinin üstünü yazı masasına çevirməlisən. Elə bizim baxdığımız geniş əhatəli, yığcam və konkret süjetlərlə zəngin olan buraxılışdan bəlli oldu ki, kollektiv belə də işləyir və yorulmaq bilmir. Redaktor və rejissor heyəti, bütün efir işçiləri hər an səfərbər vəziyyətdədirlər.

Sonra "Mədəniyyət TV"-nin və "İdman TV"-nin, bəzi redaksiyaların fəaliyyəti ilə maraqlandıq. Bir daha əmin olduq ki,"Həftə", "Əsas məsələ", "Çıxışa doğru", "Sözümüz imzamızdır", "Obyektiv", "Hədəf", "Parlament saatı" proqramları tamaşaçıların diqqətini səriştəli təhlil və şərhlərlə cəlb edir. Eyni zamanda, "Telesəhər", "Gün başladı", "Tarixin izi ilə", "Xalqın adamı", "Hər yer Vətəndir", "Döyüşçü" və neçə-neçə digər veriliş öz auditoriyasının tələblərinə cavab verəcək səviyyədədir.

Mən köhnə həmkarlarım Telli Pənahqızı, Firuzə Nadir, Sevda Ağazadə, İlham Zeynallı, Bəxtiyar Bəxtiyarovla, soyadlarını unutduğum Eldar, Ramiz, Ramin, Elşən, Füzuli və başqaları ilə isti-isti görüşüb hal-əhval tutduqca Elşən Ağalar da həmin anları fotoya aldı. Mənimlə bərabər illərcə burada rejissor işləmiş kiçik qardaşım Səfərin, daha sonra estafeti davam etdirmiş oğlum Müşfiqin də salamlarını əziz dostlara çatdırmaqdan zövq aldım.

Bu gün "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində bacarıqlı gənclər də inamla çalışır, yeni inkişaf mərhələsinin sütunları olmaq üçün səylər göstərirlər. Bir daha əmin olduq ki, 96 yaşlı radiomuzun, 66 yaşlı televiziyamızın ruhu gəncdir, hədəfləri aydındır. Bütün xələflərini üstələməkdə qərarlıdır və bunu bacarır. Dövlət müstəqilliyimizin bərpasından sonra əsas ideya istiqaməti milli mənlik şüurunun inkişafına töhfələr vermək olan, qabiliyyətli kadrlarla möhkəmlənən, maddi-texniki bazası tam yenilənən teleradio öncül rolunu qətiyyən əldən vermir. Bu gün bu möcüzəli məkana əsl yaradıcı mühit, kreativ düşüncə hakimdir. Forma və məzmun yeniliklərinin relsləri üzərində xalqın mental xüsusiyyətlərinin, milli keyfiyyətinin qorunması burada başlıca dəyişməz xəttdir. QSC-yə məxsus AzTV, "Mədəniyyət TV", "İdman TV", Azərbaycan Radiosu və Beynəlxalq Radionun onilliklərlə formalaşmış zəngin audiovizual və arxiv materiallarının etibarlı şəkildə qorunub saxlanması, rəqəmsallaşdırılması və vahid bazasının yaradılması uğurların təməlində dayanır.

Ekspertlərin fikrincə, internet davamlı olaraq seyrçiləri cəlb etsə də, AzTV və ana radio da proqramlarını sosial şəbəkələrdə, öz saytlarında yerləşdirməklə öz auditoriyasını azalmağa qoymur və buna nail ola bilir. Bu və şahidi olduğumuz digər amillər deməyə əsas verir ki, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC son illəri özü üçün böyük yüksəliş, yenilənmə və tərəqqi dövrü kimi səciyyələndirə bilir. Universitet müəllimim, ünlü jurnalist Cahangir Məmmədlinin təbirincə desəm, Azteleradio dövlətçiliyimizin, milli ideologiyamızın ən layiqli media qarantıdır.

...Keçmiş doğma kollektivimlə bir-iki saatlıq unudulmaz təmaslardan sonra geri qayıtmaq istəyirdim ki, bir zamanlar çiyin-çiyinə çalışdığım tanınmış şərhçi, Əməkdar jurnalist Fikrət Adıgözəlli ilə rastlaşdım. Bəlkə də təsadüf idi, bəlkə də yox: televiziyanın ərazisinə daxil olanda ustad Aydın Əliyev, indi oradan ayrılanda isə Fikrət qarşıma çıxdı. Məni peşəkar jurnalistikaya pərvazlandırmış idman redaksiyasının ünlü təmsilçiləri ilə görüş doğrudan-doğruya könlümcə oldu. Yarım əsrə qədərdir ki, televiziyaya, idman jurnalistikasına sədaqəti ilə seçilən Fikrətlə gənclik illərimizi, unudulmaz əhvalatlarımızı xatırladıq.

Ziyarətindən zəngin təəssüratla döndüyüm Azərbaycan Radio və Televiziyasının əməkdaşlarına daha böyük uğurlar arzusu ilə:

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***